# Açıqlıq Və İnformasiya Əldə Etmək Hüququ

**Talut Hüseynov**
*Muğla Sıtkı Koçman Universiteti*
*İdarəetmə İxtisası (Magistratura), Milli Aviasiya Akademiyası*
*Hüquqşünaslıq İxtisası (Bakalavr)*

AÇAR SÖZLƏR: Dövlət idarəetmə, açıqlıq, şəffaflıq, informasiya, açıq hökumət, informasiya əldə etmək, hüquq, məlumat azadlığı

KEY WORDS: Public administration, opennes, transparency, information, open government, access to information, law, freedom of information

Abstract

This article is related to opennes and transparency in governance. I think the topic is always topical. The article was investigated the right to freedom of information and access to information, then the application of the right of access to information in different foreign countries and Azerbaijan was investigated

Ключевые Слова: Государственное управление, открытость, прозрачность, информация, открытое правительство, доступ к информации, право, свобода информации

Резюме

Эта статья связана с открытостью и прозрачностью управления. Я думаю, что тема всегда актуальна. В статье рассматривалось право на свободу информации и доступ к информации, затем было рассмотрено применение права доступа к информации в разных зарубежных странах и Азербайджане.

GİRİŞ. İdarəetmədə açıqlıq tətbiq edilərkən xalqla, cəmiyyətlə dövlətin arasında ortaq çalışma olmalıdır. Çünki idarəetmə ilə xalq arasında qarşılıqlı əlaqənin olması, idarəetmənin hansı sahədə aktiv və ya passiv açıqlığı tətbiq edəcəyini əvvəlcədən müəyyənləşdirməsi ilə və tərəflərin vəzifələrini zamanında həyata keçirmələri ilə daha çox səmərə əldə edilə bilər. Dövlət idarəetməsinin açıq, şəffaf tətbiq edilməsi ölkədə korrupsiya ilə mübarizəyə də müsbət təsir göstərə bilər.

İnformasiya əldə etmək hüququ idarəetmədə açıqlığın formalaşması üçün bir vasitə olaraq qəbul edilə bilər. Cəmiyyət tərəfindən bu hüququn tətbiq edilməsi və ya tətbiq edilə bilməsi üçün dövlətdən lazımı şəraiti yaratmasını istəməsi idarəetmədə açıqlığın təmininə təkan verəcəkdir.

İDARƏETMƏDƏ AÇIQLIQ. İdarəçilikdə açıqlıq anlayışı XX. əsrin sonlarında meydana gəlməyə başlamışdı.

Dünyada fərqli ölkələrdə idarəetmədə açıqlıq fərqli səviyyələrdə həyata keçirilir. Demokratiya inkişaf etmiş ölkələrdə müəyyən bir səviyyədə tətbiq edildiyi halda, inkişaf etməkdə olan ölkələrdə isə yeni-yeni inkişaf edir (Eken, 1994: 2).

Açıqlıq Türk Dil Qurumu lüğətlərində aydınlıq, aydın olmaq, aydın bir şey olmaq, bir şeyin gizli olmamağı, görünməməyi mənasına gəlir (Fındıklı, 1996: 103). Açıqlıq idarəetmə, idarəçilik sözləri ilə birləşdiyində isə yerli idarəçilik və dövlət idarəçiliyi sahəsində gizli və qapalı tərəflərinin bilinməsinə icazə verilməsi və fəaliyyətlərinin hər kəs tərəfindən görülə bilməsi kimi ifadə edilə bilər ( Doğan, 2013:173-183).

İdarəetmədə açıqlığın iki növü vardır: Aktiv açıqlıq və Passiv açıqlıq.

Aktiv açıqlıq növü idarəetmənin informasiya vermək, paylaşmaq vəzifəsidir. Bu növ açıqlıq tətbiq edilərkən şəxsin informasiya əldə etmək

üçün quruma getməsinə ehtiyac olmur. Qurum özü fəaliyyəti haqqında, qərarları haqqında məlumat yayımlayır. Bu zaman iki metoddan istifadə edilə bilər. Birinci metod, informasiya birbaşa xalqa, cəmiyyətə ötürülür. İkinci metod isə informasiya üçüncü şəxsə, mediaya, ötürülür, o da informasiyanı cəmiyyətə ötürür (Gournay, 1971: 90).

Passiv açıqlıqda isə qurum informasiya yayımlamır, şəxs məlumat əldə etmək üçün quruma müraciət edir.

İNFORMASİYA ƏLDƏ ETMƏK HÜQUQUNUN ANLAYIŞI. İnformasiya əldə etmək hüququna keçmədən öncə ədəbiyyatlarda birlikdə istifadə olunan hüquq və azadlıq anlayışlarının ilk baxışda eyni mənalı kimi görünsə də, əslində bu iki anlayış çox fərqli olduğunu nəzərə çatdırmaq istəyirəm.

Azadlıq, şəxsin bir şeyi etmək və ya etməmək iradəsinə sahib olması, müəyyən bir şeyi etmək və ya etməmək haqqında şəxsin özünün qərar verməsi olaraq qəbul edilir (Kaboğlu, 1989: 14). Başqa bir ifadə ilə sərbəst hərəkət etmə gücü, müstəqilliyin ifadəsidir (Tunaya, 1982: 187).

Hüquq isə verilmiş səlahiyyətlərdir. Bu səlahiyyətlər konstitusiya, qanunlarla müəyyən edilir (Tunaya, 1982: 187). Hüquqla azadlıq arasında fərqlilik azadlığın sahəsinin əhatə dairəsinə görə daha geniş olmasıdır. Hüquq azadlığın konstitusiya və qanunlarla məhdudlanan halıdır.

İnformasiya əldə etmək hüququ dövlətin gizliliyinə qarşı istifadə olunan bir hüquqdur (Kaya, 2005: 60-61). İnformasiya əldə etmək hüququ dar mənada haqqında hərəkət, əməliyyat aparılan və ya aparılmış, qərar alınan və ya alınacaq şəxslərin idarəetmədən onlara lazımı məlumatı ala bilməsidir. Geniş mənada isə şəxsin idarəetmənin əlində olan hər növ informasiya, sənəd və məlumatları əldə edə bilməsi mənasına gəlir (Eken, 2005b: 63).

XARİCİ ÖLKƏLƏRDƏ İNFORMASİYA ƏLDƏ ETMƏK HÜQUQU.

Kanada . İnformasiya Əldə Etmək Haqqında Qanun 1983-cü ildə qüvvəyə minmişdir. Kanadada vətəndaşlara və ölkədə davamlı iqamətgahı olan xarici vətəndaşlara federal hökumət məlumatlarını əldə etmək hüququ verilib (Bilgi Edinme Değerlendirme Kurulu, 2015: 73). 1989-cu ildə isə bu hüquq bütün şəxslərə və şirkətlərə verilib (Bilgi Edinme Değerlendirme Kurulu, 2015: 73; Kaya, 2005: 388-389). Bu qanunla müraciət edilən orqanlar tərəfindən məlumatların verilməsi ilə birlikdə, qurumlara müəyyən edilmiş müddətlərdə məlumatlarını yayımlamaq öhdəliyi verilib (Bilgi Edinme Değerlendirme Kurulu, 2015: 74). Yazılı müraciətlərə 30 gündən gec olmayaraq cavab verilməlidir. Əgər müraciətlərin cavablanması üçün əlavə olaraq araşdırma aparmaq, məlumat toplamaq lazım olarsa, bu müddət uzadıla biləcəyi göstərilsə də, dəqiq tarix göstərilməyib. Bu vəziyyət haqqında müraciət edən şəxslə birlikdə İnformasiya Komissarına da məlumat verilməli olduğu ifadə edilib. Göstərilən müddət içərisində müraciət cavablanmasa qurumun müraciəti cavablamadan imtina etdiyi qəbul edilir. Müraciətlər üçün ödəniş 25 dollardan çox olmamaq şərti ilə və əlavə olaraq sənədləri əldə etmək üçün əlavə ödəniş tələb edilə bilər ( Bilgi Edinme Değerlendirme Kurulu, 2015: 75).

Əldə edilməsi məhdudlanan məlumatlara beynəlxalq əlaqələr, milli təhlükəsizlik, ölkənin və bəzi dövlət qurumlarının iqtisadi mənafelərini əhatə edən məlumatlar, şəxsi məlumatlar, kommersiya sirri və maliyyə məlumatları, məhkəmə və istintaq məlumatları, nəzarət, yoxlama ilə əlaqəli məlumatlar və müraciət edildiyi tarixdən 90 gün içərisində yayımlanacaq məlumatlar aiddir (Bilgi Edinme Değerlendirme Kurulu, 2015:76).

Müraciətlərlə əlaqəli şikayətlər İnformasiya Komissarına edilir (Bilgi Edinme Değerlendirme Kurulu, 2015: 76; The Acces to Information Act, 1983).

Amerika Birləşmiş Ştatları. İnformasiya Əldə Etmək Qanunu 1966-cı ildə qəbul edilmiş, 1967-ci ildə qüvvəyə minmişdir (Bilgi Edinme Değerlendirme Kurumu, 2015: 27; Jacqueline, 1972: 13-14).

Bu Qanuna görə ayrı seçkilik olmadan hər kəs hökumət orqanından məlumat almaq hüququna malikdir. Qanunun əhatə dairəsinə inzibati və hərbi orqanlara, dövlət hüquqi şəxslərinə, dövlət qulluğunu həyata keçirən orqan və qurumlara məlumat əldə etmək üçün edilən müraciətləri əhatə edir. . Ancaq Əyalət İdarələrinə, məhkəmələrə, ABŞ Konqresi ilə vəzifəsi sadəcə prezident və vitse-prezidentə məsləhət və kömək etməklə məhdudlanan Ağ Evdə xidmət bölmələrinə göndərilən müraciətlər bu qanunla tənzimlənmir. Sadəcə yazılı müraciətlər qeydə alınır. Müraciətlər 20 iş gününə, əgər əlavə araşdırma aparmaq

lazım olarsa 30 iş günündən gec olmadan cavablanmalıdır. Əgər müraciət haqqında imtina cavabı varsa, şəxsə dərhal bildirilir (Bilgi Edinme Değerlendirme Kurumu, 2015: 29).

Məlumatlar üçün ödənişlərin miqdarı hər qurum tərəfindən müəyyən edilir. Bu ödənişlər ticarət məqsədli müraciətlər, təhsil qurumlarının müraciətləri, kommersiya məqsədi olmayan elmi institutların müraciətləri, mətbuat təmsilçilərinin müraciətləri və digər müraciətlər olmaqla qruplara ayrılır. İctimai faydalı olan, hökumətin fəaliyyəti haqqında olan məlumatlar, kommersiya mənafe üçün olmayan məlumatların açıqlanması üçün edilən müraciətlər üçün ya ödəniş cüzi olur, ya da ödəniş tələb edilmir (Bilgi Edinme Değerlendirme Kurumu, 2015: 30; The Freedom of İnformation act, 1966).

Amerika Birləşmiş Ştatlarında açıqlanması məhdudlanan məlumatlara milli təhlükəsizlik və xarici əlaqələrdə gizli qalmalı olan məlumatlar, qurum daxili qayda və işçi heyəti qaydaları, digər qanunlara görə gizli qalmalı olan məlumatlar, kommersiya sirri və maliyyə məlumatları, tərəflərdən başqa şəxsə verilməyən qurum daxili və qurumlar arası yazışmalar, özəl həyatla bağlı məlumatlar, məhkəmə və istintaqla bağlı məlumatlar, maliyyə qurumlarının işi, tənzimləmə və nəzarət ilə əlaqəli məlumatlar, neft quyularının geoloji və geofiziki məlumatlar aiddir (Bilgi Edinme Değerlendirme Kurumu, 2015: 31).

Müraciətlərlə əlaqəli şikayətlər əvvəlcə qurumun ən üst başçısına edilir. Bu şikayət 20 iş günündə cavablanmalıdır. Başçının qəbul etdiyi qərarlardan isə federal məhkəmələrə şikayət edilə bilər (Bilgi Edinme Değerlendirme Kurumu, 2015: 31; The Freedom of İnformation Act, 1966). Ancaq 2007-ci ildə məqsədi və vəzifəsi şəxslərlə dövlət qurumları arasında yaranan problemlərin həllində, məhkəmə yoluna alternativ olaraq, vasitəçilik və ya mümkün deyilsə, tövsiyə qərarlar qəbul edən Milli Arxivlər və Sənədlər İdarə orqanında Dövlət İnformasiya Xidmətləri Bürosu yaradılıb (Bilgi Edinme Değerlendirme Kurumu, 2015: 31; The Office of Goverment İnformation Services https://www.archives.gov/ogis).

İngiltərə. 2000-ci ildə qəbul edilən, 2005-ci ildə qüvvəyə minən Məlumat Azadlığı Haqqında Qanunla hər kəsə hökumət məlumatlarını əldə etmək hüququ verildi (Bilgi Edinme Değerlendirme Kurulu, 2015: 61). Bu Qanunun qəbul edilməsi ilə əhatə etdiyi qurumlara məlumatları yayımlamaq öhdəliyi verilib. Bu öhdəliklərə qurumun yayımlanacaq məlumatları, yayımlanacaq məlumatların ödənişli olub olmamağı haqqından layihə hazırlanmalı və bu layihə davamlı yeniləmək aiddir (Bilgi Edinme Değerlendirme Kurulu, 2015: 61; The Freedom of İnformation Act, 2000).

Qanuna görə müraciətlər 20 iş günündən gec olmadan cavablanmalıdır. Əgər əlavə araşdırmaya ehtiyac olarsa 20 iş günü qədər də uzadıla bilər. Əgər qurum məlumatı açıqlamırsa 20 iş günü içində şəxsə məlumat verilir (The Guide to Freedom of İnformation, 2000). Surət çıxarmaq və ya poçtla məlumatların göndərilməsi, kommersiya məqsədilə hazırlanan və ya satmaq üçün tələb edilən məlumatlara görə və digər qanunvericilikdə icazə verilən hallarda müraciətlər üçün ödəniş alına bilər. Online məlumatlara daxil olmaq ödənişsizdir (The Guide to Freedom of İnformation, 2000). Məhdudiyyətlər iki qrupa bölünür. Birincisi mütləq məhdudiyyətlər heç bir şəkildə açıqlanmamalı məlumatlardır. İkinci qrup məhdudiyyətlər isə sınaqdan keçirilən istisnalar aiddir. Bu məlumatlar yayımlanarsa ictimai fayda nəzərə alınır. Məhdudiyyətlərə şəxsin başqa yollarla əldə edə biləcəyi məlumatlar, gələcəkdə yayımlanacaq məlumatlar, təhlükəsizlik sahəsindəki qurumlarla əlaqəli məlumatlar, milli təhlükəsizlik və milli müdafiə, xarici əlaqələr, Birləşmiş Krallıq içərisindəki əlaqələr, iqtisadi, istintaq və məhkəmə qeydləri, dövlət siyasətinin hazırlanması, sağlamlıq və təhlükəsizlik, ekoloji və şəxsi məlumatlar, gizlilik çərçivəsində olan və kommersiya məqsədləri haqqında məlumatlar məhdudiyyətlərin tətbiq edildiyi sahələrə aiddir (Bilgi Edinme Değerlendirme Kurulu, 2015: 64; The Guide to Freedom of İnformation, 2000).

Müraciətlərlə əlaqəli şikayətlər əlaqəli quruma və ya İnformasiya Komissarına edilir (Bilgi Değerlendirme Kurulu, 2015: 64).

Yaponiya. İnzibati Orqanların Məlumatlarını Əldə Etmək Haqqında Qanun 2001-ci ildə qüvvəyə minmişdir. Bu Qanunla da dövlət orqanları üçün müraciət edildikdə məlumatı paylaşmaq öhdəliyi verildi. Bu Qanun və Nazirlər Kabineti Quruluşu Qanunu, Mərkəzi Hökumət Təşkilat Qanunu və İmperatorluq Ailəsi Qurumu Qanunun müvafiq maddələrinə görə, Nazirlər Kabineti Bürosu, İmperatorluq Ailəsi Qurumu məlumat vermək öhdəliyi yaranmış oldu. Məlumat Azadlığı Qanununun əhatə etmədiyi sahələrə kommersiya məlumatları, şəxsi məlumatlar, dövlətlər arası siyasətlə əlaqəli məlumatlar aiddir (Law Concerning Access to Information Held by Administrative Organs).

Qanuna görə müraciətlər qurumun idarəçisinə edilir. Müraciətlər 30 gün içərisində cavablanır. Əlavə Araşdırma lazım olarsa, 30 gün müddətində də uzadıla bilər (Bilgi Edinme Değerlendirme

Kurulu, 2015: 69). Nazirlər Kabinetinin qərarına əsasən müraciətlər ödənişlidir (The Law Concerning Access to Information Held by Administrative Organs, 2001). Müraciətlərlə əlaqəli etiraz və şikayətlərin qəbul edilməsi üçün Nazirlər Kabineti nəzdində qurum yaradılıb. Ancaq etiraz və şikayətlər sadəcə İnformasiya Əldə Etmək və Fərdi Məlumatların Qorunmasını Qiymətləndirmə Qurumuna deyil, məhkəmələrə də edilə bilər. Etiraz və Şikayətlərin bu quruma edilə bilməsi üçün əlaqəli qurumun ən üst başçısına etiraz edilmiş olmalıdır (The Law Concerning Access to Information Held by Administrative Organs, 2001).

Türkiyə. Türkiyədə informasiya əldə etmək hüququ konstitusion hüquq olaraq əks edilib. Türkiyə Respublikası Konstitusiyasının 74-cü maddəsinə görə vətəndaşlar və qarşılıqlı münasibətlər şərti ilə Türkiyədə yaşayan xaricilər özləri ilə və ya ictimaiyyət ilə əlaqədar dilək və şikayətləri haqqında, səlahiyyətli orqanlara və Türkiyə Böyük Millət Məclisə yazılı müraciət etmək hüququna malikdir.

Ancaq Türkiyədə informasiya əldə etmək hüququ konstitusion tənzimləmədən əvvəl Qanun ilə tanınmışdır. İnformasiya Əldə Etmək Hüququ Qanunu 9 Oktyabr 2003-cü ildə qəbul edilmiş və 24 Aprel 2004 tarixində isə qüvvəyə minmişdir. Bu Qanun bərabərlik, tərəfsizlik, açıqlıq prinsiplərini əsas alaraq informasiya əldə etmək hüququnun tətbiqini nəzərdə tutur.

Bu Qanunun 4-cü maddəsinə görə hər kəsin informasiya əldə etmək hüququ vardır.

Müraciətlər 15 iş günündən gec olmadan cavablanır. Ancaq əlavə araşdırma və ya məlumat toplamaq lazım gələrsə, 15 iş günü qədər də uzadıla bilər. Bu vəziyyət haqqında şəxsə 15 günlük müddətdə məlumat verilir.

Müraciəti cavablamadan imtina edildikdə şəxs məhkəməyə müraciət etmədən əvvəl 15 iş günü içərisində İnformasiya Əldə Etmə Qiymətləndirmə Şurasına etiraz edə bilər. Şura isə 30 iş günü müddətində məsələ haqqında qərar qəbul edir.

Türkiyədə informasiya əldə etmə hüququna dövlət sirri olan məlumatlar, ölkənin iqtisadi mənafelərinə aid məlumatlar, kəşfiyyatla əlaqədar məlumatlar, inzibati və məhkəmə istintaqına, özəl həyat, xəbərləşmə gizliliyi, kommersiya sirri, fikir sənət əsərləri, qurum daxili tənzimləmələr, tövsiyə və mütaliə tələbləri ilə əlaqəli olan məlumatlara məhdudiyyətlər tətbiq edilir.

Türkiyədə İnformasiya əldə etmək hüququnun tətbiqi sahəsində problemlərin ortadan qaldırılması üçün müstəqil bir qurum İnformasiya Əldə Etmə Qiymətləndirmə Şurası yaradılıb.

AZƏRBAYCANDA İNFORMASİYA ƏLDƏ ETMƏK HÜQUQU.

Azərbaycanda ən üstün hüquq qaynağı olan Azərbaycan Respublikası Konstitusiyasının 50-ci maddəsində məlumat əldə etmək azadlığı, 57-ci maddəsində isə müraciət etmək hüququ göstərilib. Azərbaycanda məlumatın əldə edilməsi şərtləri və qaydaları 30 Sentyabr 2005 tarixli İnformasiya əldə etmək haqqında Azərbaycan Respublikası Qanunu ilə tənzimlənir. Bu Qanun Milli Məclisdə 3 dəfə səs verməyə çıxdıqdan sonra qəbul edilib.

Bu qanuna görə hər bir şəxs şəxsən, yaxud onun nümayəndəsi vasitəsilə, quruma müraciət etmək və ya məlumat əldə etmək üsulunu seçmək və informasiya əldə etmək hüququnun tətbiqində azaddır. Məlumat şəxsin və ya təşkilatın əlində olmadıqda, doğru şəxsə yönəlmək üçün yardım almaq hüququna sahibdir.

Bu Qanunla yazılı müraciətləri qəbul etməkdən imtina edilməsi qadağan edilib.

Əldə edilməsi məhdudlaşdırılan məlumatlar hüquqi rejiminə görə gizli və konfidensial olaraq fərqləndirilir.

Dövlət sirri məxfi, vətəndaşların, mülkiyyət növündən asılı olmayaraq yaradılmış idarə, müəssisə və təşkilatların, digər hüquqi şəxslərin qanuni maraqlarının qorunması məqsədi ilə əldə olunmasına məhdudiyyət qoyulan peşə (həkim, vəkil, notariat), kommersiya, istintaq və məhkəmə sirləri konfidensial xarakter daşıyır. Fərdi məlumatlar daxilolma (əldə olunma) növünə görə konfidensial və açıq kateqoriyalara bölünür (34-cü maddə).

Müraciətlərin icra müddəti 7 iş günüdür. Bu müddətdə həmin informasiya öz operativliyini itirərsə, sorğuya dərhal, bu mümkün olmadıqda isə 24 saatdan gec olmayaraq cavab verilir. İnsan həyatı, sağlamlığı, yaxud şəxsin azadlığı üçün real təhlükə yarandığı hallarda axtarılması və hazırlanması müəyyən vaxt tələb edən informasiya 48 saat ərzində təqdim edilir. Əldə edilməsi istənilən məlumat tam, açıq ifadə edilməyib , müraciət sahibinə 5 iş günüdə vəziyyət haqqında məlumat verilir. Məlumatı əlavə olaraq araşdırmaq, dəqiqləşdirmək lazım gələrsə, 7 iş günü də uzadıla bilər (24 və 25-ci maddələr).

AÇIQ MƏLUMATLAR. Azərbaycan Respublikası Qanunu ilə əldə edilməsi məhdudlaşdırılmayan məlumatlar açıq məlumatlar olaraq qəbul edilir.

Qanunvericilikdə dövlət və yerli idarəetmə orqanlarının fəaliyyətləri haqqında məlumat vermək öhdəlikləri göstərilsə də, bu məlumatların verilmə davamlılığı dəqiqləşdirilməyib (Amaşov və

Əlibəyli, 2002: 20).

Azərbaycan Respublikası Milli Məclisinin Daxili Nizamnaməsinin 3-cü maddəsinə görə Milli Məclisin iclasları açıq, aşkarlıq şəraitində keçirilir və kütləvi informasiya vasitələri ilə işıqlandırılır. Milli Məclisin, Milli Məclisin sədrinin və onun müavinlərinin, Milli Məclis Aparatı rəhbərinin dəvəti ilə Milli Məclisin iclaslarında başqa şəxslər də iştirak edə bilərlər.

Konstitusiyanın 127-ci maddəsinə görə bütün məhkəmələrdə işlərin icraatı açıq aparılır. İşə qapalı iclasda baxılmasına yalnız o halda icazə verilir ki, məhkəmə açıq icraatın dövlət, peşə və kommersiya sirrinin açılmasına səbəb olacağını güman edir, ya da vətəndaşların şəxsi və ya ailə həyatının məxfiliyini qorumaq zərurətinin mövcudluğunu müəyyən edir.

Azərbaycan Respublikası Konstitusiya Məhkəməsi haqqında Qanunda Konstitusiya Məhkəmənin açıq toplantılarına akkreditə olunmuş mətbuat mənsublarının iştirak edə bilməsi qeyd edilib. Bu toplantılar haqqında məlumat ən gec beş gün qalmış rəsmi dövlət qəzetində nəşr olunur. (Amaşov və Əlibəyli, 2002: 21).

2 İyul 1999 tarixli Bələdiyyələrin Statusu haqqında Azərbaycan Respublikası Qanununun 3-cü maddəsinə görə bələdiyyələr, bələdiyyə orqanları və onların vəzifəli şəxsləri insan və vətəndaş hüquqlarına və azadlıqlarına bilavasitə aid sənəd və materiallarla hər bir vətəndaşın tanış olmaq, habelə qanunla xüsusi hallar nəzərdə tutulmayıbsa, bələdiyyələrin fəaliyyəti haqqında tam məlumat almaq imkanını təmin etməyə, seçicilərin tapşırıqlarını yerinə yetirməyə borcludurlar.

Dövlət qurumları məlumat əldə edilə bilməsi üçün informasiya xidmətləri yaratmalıdır. Bu xidmətlərin əsas vəzifəsi dövlət qurumu ilə mətbuat arasında qarşılıqlı əlaqəni təmin etmək, qurumun fəaliyyəti və qərarları haqqında məlumatları hazırlayıb yayımlamaq üçün mediaya ötürmək olmalıdır (Amaşov və Əlibəyli, 2002: 21).

Müvafiq qanunvericiliklərə uyğun olaraq statistik məlumatlar, Milli Arxiv Fondu, həyat və sağlamlıq üçün təhlükəli olan fövqəladə vəziyyət haqqında, ekologiya təhlükəsizliyi haqqında, əhalinin radiasiya təhlükəsizliyi haqqında, xalqın sağlamlığının qorunması haqqında məlumatlar açıq məlumatlara aiddir və yayımlanmalıdır. Fövqəladə vəziyyət və Hərbi vəziyyət haqqında məlumatlar Prezident tərəfindən ən gec 6 saat əvvəl elan edilməlidir.

NƏTİCƏ. Araşdırmadan da göründüyü kimi idarəetmədə açıqlığın dövlətlərin inkişaf səviyyələri ilə əlaqəsi var. Açıqlıq və informasiya əldə etmək hüququnun həyata keçirilə bilməsi üçün beynəlxalq aləmdə bir çox qurum, təşkilat tərəfindən əsas prinsiplər qəbul edilib. Bu təşkilatların hazırladıqları müqavilələrə üzv olan dövlətlərin idarəetmə sistemlərində açıqlıq səviyyəsinin yüksəldilməsi üçün öhdəliklər nəzərdə tutulub.

İdarəetmədə açıqlıq nəzəriyyəsinin əyani forması açıq hökumətdir. Dövlətin bu idarəetmə növünü tətbiq etməsi ilə vətəndaşlara məlumatları əldə etmək azadlığı, hökumət məlumatlarının cəmiyyət tərəfindən ödənişsiz istifadəsini, dövlətin idarəetməsinin formalaşdırılması üçün vətəndaşlarla, cəmiyyətlə əlaqə yaratma, büdcə haqqında məlumat əldə etmə, qanunların hazırlanması və qəbulunda cəmiyyətin iştirakını təmin edir.

İnformasiya əldə etmək hüququnun tətbiqi şəraiti, alınan qərarlardan şikayət ediləcək orqanlar ölkələrə görə fərqlənir. Məqalədə də qeyd etdiyim kimi Türkiyədə şikayətlər İnformasiya Əldə Etmə Qiymətləndirmə Şurasına verilir.

Ancaq Azərbaycanda isə etirazları qəbul edəcək, şikayətləri məhkəməyə getmədən öncə qəbul edəcək, qiymətləndirəcək müstəqil, ixtisaslaşdırılmış qurum yaradılmayıb. Şikayətlər məlumat üçün müraciət edilən dövlət qurumunun rəhbərinə verilir. Rəhbərin qərarından isə Ombudsman və ya məhkəməyə şikayət edilə bilir. Ancaq praktikada bu mexanizm anlaşmazlıqların həllini tam təmin edə bilmir.

Azərbaycanda açıqlığın, məlumat əldə etmək azadlığının daha da inkişaf etdirilməsi üçün Türkiyədə tətbiq edilən İnformasiya Əldə Etmə Qiymətləndirmə Şurası kimi müstəqil və sadəcə Milli Məclisə hesabat verəcək qurumun yaradılması anlaşmazlıqlara, məlumatı paylaşmaqdan imtina edən qurum və səlahiyyətli şəxslərin səbəb olmadan müraciəti qiymətləndirməyə almamağı və ya müraciətlərə heç bir reaksiya göstərməməyinə həll ola bilər. Həmçinin digər dövlət qurumlarının açıqlıq və məlumat əldə etmək sahəsində həm dövlətin qəbul etdiyi fəaliyyət planları ilə, həm də qanunlarla onlara verilən öhdəliklərin tətbiqi, layihələrinin nəticəsi haqqında ildə ən az 1 dəfə məcburi olaraq bu quruma hesabat verməsi bu sahədə həm dövlət qurumlarının, həm də səlahiyyətli şəxslərin laqeydliyinin qarşısını almaq olar.

ƏDƏBİYYAT SİYAHISI

- Amaşov, Ə. Və Əlibəyli, Q.,(2002), Media və Hakimiyyət, Jurnalistlərin Müdafiə Komitəsi, Bakı: Jurnalistlərin Müdafiə Komitəsi

- Azərbaycan Respublikası Konstitusiyası (1995), http://www.azerbaijan.az/portal/General/Constitution/doc/constitution_a.pdf tarix 17.01.2018

- Azərbaycan Respublikası Milli Məclisinin Daxili Nizamnaməsi.

- Bayraktar, K.(2004,) "İdare ve Ceza Hukuku Açısından Bilgi Edinme Hakkı", Bilgi Edinme Hakkı Panel, Ankara: Türkiye Barolar Birliği Yayınları, 62, 5 May

- Bələdiyyələrin Statusu Haqqında Qanun 2 İyul 1999

- Bilgi Edinme Değerlendirme Kurulu (İnformasiya Qiymətləndirmə Şurası) nəşrləri, (Yanvar, 2015), Uluslararası Boyutuyla Bilgi Edinme Hakkı ve İtiraz Mercileri.

- Doğan, M. (2013) Yerel Yönetimlerde Açıklık Politikaları. Marmara Üniversiteti, 173-183, İyul

- Eken M.(2005b, Dekabr). Yönetimde Şeffaflık Teori - Uygulama, Sakarya: Sakarya Nəşr.

- Eken, M. (1994). Kamu Yönetiminde Gizlilik Geleneği ve Açıklık İhtiyacı, Amme

- Fındıklı, R. (1996, Sentyabr). Yönetimde Açıklık - Açık Yönetim. Türk İdare Jurnalı, 412

- Gournay, B.(1971) Yönetim Bilimine Giriş: Çağdaş Toplumlarda Kamu Yönetimi (K. İhsan, tərcümə), Ankara: TODAİE nəşr.

- İnformasiya Əldə Etmək Haqqında Azərbaycan Respublikası Qanunu 30 Sentyabr 2005.

- Kaboğlu, İ. (1989), Kolektif Özgürlükler. Diyarbakır: Dicle Üniversiteti Hüquq Fakültəsi Yayınları

- Kaya, C. (2005) İdare Hukukunda Bilgi Edinme Hakkı, Ankara: Seçkin Nəşriyyat

- Law Concerning Access to Information Held by Administrative Organs, http://www.freedominfo.org/regions/east-asia/japan/japan/ tarix 30. 11. 2017

- Məlumat Azadlığı Haqqında Azərbaycan Respublikası Qanunu 19 İyun 1998 tarixli

- The Guide to Freedom of İnformation, https://ico.org.uk/for-organisations/guide-ofreedom-of-information/receiving-a-request/ tarix 01.17.2017

- Tunaya, Z. T. (1982).Siyasal Kurumlar ve Anayasa Hukuku, İstanbul: Araştırma, Təhsil, Ekin yayınları

- Türkçe Lüğat sözlük, www.lugatsozluk.com tarix 18.01.2018